

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 21 (23.908)

*2 fevral 2022-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

**Qiyməti 20 qəpik**


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2 fevral – Azərbaycan Gəncləri Günü münasibətilə sosial şəbəkələrdəki hesablarında paylaşım edib.

Paylaşımda deyilir: "Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm".



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci il 1 fevral tarixli Sərəncamı ilə elm və təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslərə 2022-ci il Gənclər üçün Prezident mükafatı verilmişdir. Prezident mükafatına layiq görülənlər arasında Naxçıvan Dövlət Universitetinin müəllimi də vardır.

**Qasımov Əziz Kamal oğluna**

2022-ci il Gənclər üçün Prezident mükafatı verilib.

# Müasir və yüksək döyüş imkanlarına malik olan hərbi güc

## *Əlahiddə Ümumqoşun Ordu respublikamızda həyata keçirilən hərbi quruculuğun ən mükəmməl nümunələrindən biridir*



*Bu ordu hələ 2018-ci ildə Günnüt kəndini və minlərlə hektar torpağı işğaldan azad edərək Ermənistanın böyük bir ərazisinə vizual nəzarəti təmin edib, Aprel döyüşlərindən sonra Azərbaycanın hərb tarixinin növbəti şərəfli səhifəsini yazıb...*

Bu ordunun şəxsi heyəti Vətən müharibəsində qəhrəmancasına iştirak edərək Hadrut qəsəbəsi və ətraf yüksəkliklərin, Füzuli, Xocavənd və digər rayonların işğaldan azad edilməsində böyük rəşadət göstərib, Şuşa şəhərinə qədər döyüş yolu keçib...

Yüksək və ən müasir döyüş imkanlarına malik olan bu ordu indi də hərbi imkanlarını artırır, torpaqlarımızın müdafiəsini etibarlı şəkildə təmin edir...

Əlahiddə Ümumqoşun Ordudan danışırıq... Qədim yurd yerimiz Naxçıvan Muxtar Respublikasına səfərimiz zamanı Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə gedərək döyüş hazırlığı, Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının fəaliyyəti, gənc əsgərlərin xidməti üçün yaradılmış şərait və Döyüş Şöhrəti Muzeyi ilə tanış olduq.

### *Ulu öndər Heydər Əliyevin yaratdığı ordu*

Naxçıvanda Azərbaycan Ordusunun hərbi hissələrinin yaradılmasına ötən əsrin 90-cı illərində ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə başlanılıb. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra – 1991-ci il sentyabrın 7-də Müdafiə Komitəsi yaradıldı. Həmin dövrdə görkəmli dövlət xadimi Heydər Əliyevin muxtar respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər Azərbaycanda Milli Ordu quruculuğu prosesinin başlanğıcı oldu.

1992-ci ilin iyul-avqust aylarında Naxçıvan ərazisində yerləşən Rusiya Silahlı Qüvvələrinin 75-ci motoatıcı diviziyasının silah və texnikası, yaşayış binaları Müdafiə Komitəsinə təhvil verilib. Həmin ilin 15 sentyabrında isə Müdafiə Komitəsinin bazasında 5-ci əlahiddə gücləndirilmiş motoatıcı briqada yaradılıb. 1992-ci il oktyabrın 9-da Naxçıvanda ilk dəfə hərbi parad keçirilib.

1995-ci il mayın 21-də həmin briqada motoatıcı diviziyaya, 1998-ci il dekabrın 8-də Ordu Korpusuna çevrilib. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin uğurla davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin daha da artırılması, bir mərkəzdən idarəetmənin təkmilləşdirilməsi məqsədilə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən 5-ci Ordu Korpusunun əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb.



### *Naxçıvanın xüsusi təyinatlıları Vətən müharibəsində şanlı tarix yazdılar*

"N" hərbi hissədə öyrəndik ki, respublikamızda həyata keçirilən ordu quruculuğunun, qoşunların döyüş imkanlarının artırılması tədbirlərinin tərkib hissəsi kimi Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinin də maddi-texniki təminatı möhkəmləndirilib, şəxsi heyətin döyüş və mənəvi hazırlığı əhəmiyyətli dərəcədə artırılıb. Təsadüfi deyil ki, Əlahiddə Ümumqoşun Ordu bu gün yerləşdiyi coğrafi mövqeyə, kontingentinə və döyüş qabiliyyətinə görə indiki MDB ölkələrinin silahlı qüvvələri səviyyəsində analoqu olmayan statusa malikdir. Yüksək döyüş qabiliyyətinə malik olan bu ordu muxtar respublikanın etibarlı müdafiəsini tam təmin edir.

2018-ci ildə hərb tariximizə qızıl hərflərlə yazılan uğurlu "Günnüt əməliyyatı" isə Əlahiddə Ümumqoşun Ordunun yüksək döyüş hazırlığını, şəxsi heyətinin rəşadət əzmini bir daha bütün dünyaya nümayiş etdirdi. Belə ki, 2018-ci ilin may ayında Naxçıvan Muxtar Respublikasının 11 min hektar ərazisi və Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilərək dövlət sərhədi boyunca əlverişli hədlər ələ keçirildi. "Günnüt əməliyyatı" zamanı Əlahiddə Ümumqoşun Ordu Vəlidağ, Kömürlüdağ istiqamətində Axsal dağı, Qızılqaya dağı, Yağargərdik dağı, Bağırsaq dağı və Hənqulubağ sahəsində dövlət sərhədi boyunca əlverişli mövqeləri tutdu. Qızılqaya yüksəkliyinin ən böyük strateji əhəmiyyəti isə ordumuza Ermənistandakı avtomobil yoluna nəzarət etməyə imkan verməsidir.

Vətən müharibəsi günlərində Naxçıvandan göndərilən hərbi kontingent əsl qəhrəmanlıq nümunəsi yaratdı. Müzəffər Ordumuzun qələbəsi ilə nəticələnən Vətən müharibəsində Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları, o cümlədən Heydər Əliyev adına Hərbi Liseyin məzunları və Naxçıvan Qarnizonu Qoşunlarında təşkil olunan ixtisas hazırlığı kurslarının yetirmələri böyük şücaətlər göstərərək tarix yazdılar.

Vətən müharibəsi günlərində şəhid olan hərbçilərimizi qarşılamaq üçün bütün Naxçıvan əhalisi yollara çıxmışdı. Həmin təsirli və eyni zamanda qürur doğuran mənzərə bir daha göstərmişdi ki, bu xalqı məğlub etmək olmaz. O cümlədən Vətən müharibəsində döyüş tapşırıqlarını uğurla yerinə yetirən hərbi qulluqçular da Naxçıvanda böyük təntənə ilə qarşılanmışlar. Şərəfli döyüş yolu keçən qəhrəman Vətən oğullarını minlərlə insan izdihamlı şəkildə müşayiət etmiş, yolboyu üçrəngli bayrağımız dalğalandırılmışdı.

Döyüşlərdə qəhrəmanlıq göstərən Əlahiddə Ümumqoşun Ordunun zabitləri, gizirləri, əsgərləri Azərbaycan Respublikasının orden və medalları ilə təltif olunublar, bir neçəsi isə Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb.

Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularından yaralanan və şəhidlik zirvəsinə ucalanlar da olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi ilə hərbi qulluqçuların, müharibə veteranlarının və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı məsələləri hər zaman diqqət mərkəzində saxlanılır, bununla bağlı ardıcıl tədbirlər görülür.

### *Şəxsi heyətin peşəkarlığının artırılması diqqət mərkəzindədir*

Vətən savaşına nəzər salsaq, görərik ki, hərbi qulluqçuların tapşırıqları peşəkarcasına yerinə yetirməsi həm də kurslarda və təlimlərdə qazanılan təcrübənin nəticəsidir. Vətən müharibəsində döyüşən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının xidmət yolu Təlim-Tədris Mərkəzindən və təlimlərdən başlayıb.

Təlim-Tədris Mərkəzində Əlahiddə Ümumqoşun Ordunun zabitləri və gizirləri müasir standartlar səviyyəsində döyüş əməliyyatlarının aparılmasının incəliklərini mənimsəyir, hərbi peşəkarlıqlarını daimi olaraq artırırlar. Mərkəzdə taktiki simulyasiya, trenajor, mədəni-kütləvi işin təşkili bölmələri, sənədli və tədris filmləri kinostudiyası, hərbi mətbəə yerləşir. Burada, həmçinin zirehli texnika, raket-artilleriya sistemləri, rabitə, taktiki hazırlıq, qarovul hazırlığı, atəş hazırlığı, topoqrafiya, komandir hazırlığı və digər sinif otaqları, kitabxana, xarici dillər kabinəsi və 700 yerlik tədbirlər zalı var.

Hərbi tədris proqramının keyfiyyətlə mənimsənilməsi, şəxsi heyətin peşəkarlığının və nəzəri biliklərinin artırılması üçün sinif otaqlarında lazımi şərait yaradılıb, kompüterlər quraşdırılıb, əyani vəsaitlər və məlumat stendləri qoyulub. Trenajor zalında tank, artilleriya və digər zirehli texnikaların idarə olunması, eləcə də texniki və atış sistemləri üzrə trenajorlar quraşdırılıb. Trenajorlar vasitəsilə zirehli texnikaların idarə olunması və döyüş zamanı onlardan atəş açılması öyrədilir. Keçirilən təlimlərin sonunda qiymətləndirmənin aparılması isə şəxsi heyətin bilik səviyyəsini və peşəkarlığını müəyyən etməyə imkan verir. Simulyasiya mərkəzində artilleriya qurğularının taktiki-texniki xüsusiyyətləri, həmçinin atışın idarə olunması üzrə məşğələlərin praktik mənimsənilməsi üçün hər cür şərait yaradılıb, otaqlarda mərkəzdən idarə olunan və xüsusi proqram təminatına malik olan kompüterlər və proyektorlar quraşdırılıb. Atəş hazırlığı otağında yaradılan virtual təlim meydançası döyüş sursatı sərf etmədən müxtəlif şəraitdə atəşin idarə olunmasını həyata keçirməyə imkan verir. Həmçinin burada atəş tapşırıqlarını



*Ardı 2-ci səhifədə*



təhlil etmək və qiymətləndirmək, atəş göstəricilərinin dəqiqliyini müqayisə etmək mümkündür.

Mərkəzin kitabxanasında Azərbaycan və dünya ədəbiyyatı nümunələri, eləcə də ordumuzun keçdiyi tarixi inkişaf yolunu əks etdirən 16 mindən artıq kitab, qəzet və jurnal materialları toplanıb. Burada şəxsi heyətin gündəlik dövri mətbuatla tanış olmaq, hərbi və bədii ədəbiyyatları mütaliə etmək imkanı var.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələri mütəmadi olaraq təlimlərdə iştirak edirlər. Hər tərəfdən dağ silsilələri ilə əhatə olunan muxtar respublikanın qışı soyuq və qarlı keçən yüksək dağlıq ərazilərində “Naxçıvan Qarnizonu Qoşunlarının uzlaşma planı”na əsasən şəxsi heyətin şiddətli soyuqlarda döyüş tapşırıqlarını yerinə yetirmə bacarıqlarının və həyatda qalma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə təlimlər keçirilir.

Öyrəndik ki, Naxçıvan Qarnizonu Qoşunlarının xüsusi təyinatlı birləşmə və hissələrinin birgə taktiki-xüsusi təlimləri ilə yanaşı, komanda-qərargah təlimlərində, əməliyyat taktiki təlimlərində və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri ilə keçirilən döyüş atışlı birgə taktiki təlimlərdə xüsusi təyinatlılarımız peşəkarlıq nümayiş etdiriblər. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələrinin Naxçıvan Qarnizonunun digər güc strukturlarının bölmələri ilə qarşılıqlı əlaqədə düşmənə əks-zərbə endirməsi, düşmən müdafiəsinin yaxın dərinliyindəki dağ aşırımlarını, təminat və təxliyə yollarını tutması, düşmənin mühüm obyektlərini məhv edərək döyüş texnikasını ələ keçirməsi tapşırıqları təlimlərdə uğurla yerinə yetirilib.

Məhz belə təlimlərdə qazanılan təcrübə 44 günlük Vətən müharibəsində öz bəhrəsini verdi və Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlı bölmələri Tarixi Qələbənin qazanılmasında mühüm rol oynadılar.

Çətin hava və relyef şəraitində fəaliyyət göstərə bilmə bacarığına malik olan xüsusi təyinatlılarımızla “Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması” mövzusunda taktiki-xüsusi təlimlər də keçirilib. Bu təlimlərdə də yüksək peşəkarlıq nümayiş etdirən xüsusi təyinatlı bölmələrin şəxsi heyəti dağlarda praktik döyüş bacarığını mükəmməl mənimsəyib.





### *Əsgərlərin məişət şəraiti ən müasir standartlara uyğundur*

Daha sonra orduya çağırılan gənc əsgərlərin məişət şəraiti ilə tanış olduq. “N” hərbi hissədəki əsgər yataqxanaları və Əsgəri-Məişət Kompleksindəki şərait göstərir ki, burada hərbi həyata qədəm qoyan gənc əsgərlərin xidmət zamanı bütün məişət təminatları ən yüksək səviyyədədir. Yataqxanalarda əsgərlərin istirahəti üçün hərtərəfli şərait yaradılıb. Üçmərtəbəli binalarda müasir səviyyədə məişət şəraiti yaradılıb, onların hər biri zəruri avadanlıqlarla təchiz edilib.

Əsgəri-Məişət Kompleksində poçt xidmətləri üçün otaq, mağaza və çay evi də hərbi qulluqçuların ixtiyarına verilib. Əsgərlərin ailələri ilə əlaqə saxlaya bilmələri üçün telefon rabitəsi yaradılıb. Əsgərlərin yeməyinin bişirilməsi, paltarlarının yuyulması isə hərbi hissədəki mülki işçilərə həvalə olunub. Kompleksin yemək salonlarında eyni vaxtda 3 min hərbçi qidalana bilər.

Kompleksin anbarları da müasir səviyyədə qurulub. Anbarlar müasir soyuducu kameralar və digər zəruri avadanlıqlarla təchiz edilib. Burada dərzi otağı, camaşırxana və qazanxana da mövcuddur. Hər bir sahədə istifadə olunan avadanlıqlar isə ən müasir standartlara uyğundur. Müasir hamam kompleksi də əsgərlərin ixtiyarındadır.





Bir sözlə, burada yaradılan şərait dövlətimiz tərəfindən əsgərlərin sosial məsələlərinin həlli istiqamətində atılan addımların ardıcıl xarakter aldığını bir daha nümayiş etdirir. Bu hərbi hissədə yaradılan şərait bir daha göstərir ki, Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə son illər maddi-texniki bazası daha da gücləndirilən Azərbaycan Silahlı Qüvvələri, haqlı olaraq, dünyanın ən qüdrətli ordularından biri kimi tanınır.

Naxçıvanda onu da öyrəndik ki, ön xətdəki hərbi hissələrdə də xidmətin rahat və etibarlı təşkili məqsədilə inşa olunan binalarda əsgər və zabitlər üçün yataq yerləri, komandir heyəti üçün xidməti otaqlar, müxtəlif təyinatlı siniflər, idman zalları, tibb otağı, mətbəx, yeməkxana, əşya və ərzaq anbarları yaradılıb. Bölmələrin yerləşdiyi ərazinin relyefinə və iqlim şəraitinə uyğun inşa olunan binalar keyfiyyətli mebel dəstləri və digər lazımı avadanlıqlarla, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Mövqelərdə düşmən təxribatlarının qarşısını almağa hesablanmış tədbirlər görülərək müşahidə məntəqələri, səngər və əlaqə yolları əlverişsiz hava şəraitinə uyğunlaşdırılıb.

Naxçıvan Muxtar Respublikasında xalq-ordu birliyini özündə əks etdirən tədbirlərdən biri də artıq ənənə halını almış hərbi hissələrə sovqat aparılmasıdır. Naxçıvan əhalisi, müxtəlif dövlət qurumlarının, müəssisə və təşkilatların nümayəndələri, ayrı-ayrı sahibkarlıq subyektlərinin təmsilçiləri hərbi hissələrə baş çəkir, əsgərlərə sovqat aparırlar. Əlamətdar və bayram günlərində ictimaiyyət nümayəndələrinin əsgərlərin yanında olması ordu ilə xalqın birliyinin daim bir təcəssümüdür. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov da tez-tez hərbi hissələrdə olur, xidmətin vəziyyəti, əsgərlərin şəraiti ilə yaxından maraqlanır.

### *Naxçıvan Döyüş Şöhrəti Muzeyi*

Naxçıvan Muxtar Respublikasında qonaqların böyük marağına səbəb olan ünvanlardan biri açıq səma altındakı Döyüş Şöhrəti Muzeyidir. Gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində mühüm rol oynayan Naxçıvan Döyüş Şöhrəti Muzeyi Azərbaycan Silahlı Qüvvələrinin 100-cü ildönümü ərəfəsində yaradılıb.

Muzey 26 adda eksponatla fəaliyyətə başlayıb. Qısa müddətdə onların sayı 41-ə çatdırılıb. Muzeydə müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş və döyüş yolu keçmiş artilleriya üzrə müxtəlif haubitsa, top və minaatanlar, hava hücumundan müdafiə üzrə döyüş maşınları, “S-75”, “S-125”, “S-200” zenit raket kompleksləri, zenit qurğuları, aviasiya üzrə “SU-17” və “MİQ-21” döyüş təyyarələri, “YAK-50” idman-aerobatik təlim və ikinəfərlik “YAK-52” idman-aerobatik təlim-məşq təyyarələri, “Mİ-8T” və “Mİ-24V” döyüş-nəqliyyat helikopterləri, mühəndis xidməti üzrə yerqazan və manealəğvetmə maşınları, zirehli tank və avtomobil texnikalarından tanklar, piyadanın döyüş maşınları, zirehli transportyor və döyüş kəşfiyyat dozor maşınları, dartıcılar, müxtəlif yük və minik avtomobilləri nümayiş etdirilir.

Ümumi sahəsi 13 min kvadratmetr olan Naxçıvan Döyüş Şöhrəti Muzeyində hər bir döyüş texnikası audioməlumatlandırma sistemi ilə təmin edilib. Belə ki, nümayiş etdirilən hərbi texnikaların hər birinin yanında məlumat lövhələri qoyulub. Həmin lövhələrdə nümayiş etdirilən texnikaların istehsal ili, istifadə sahələri, texniki xüsusiyyətləri, döyüşlərdə iştirakı haqqında məlumatlar yerləşdirilib.

Onu da qeyd edək ki, burada nümayiş etdirilən hərbi texnikalar hazırda bir çox ölkələrin ordularında, eləcə də erməni hərbi birləşmələrində istifadə olunmaqdadır. Azərbaycan Ordusunun arsenalı müasir tələblərə yüksək səviyyədə cavab verən aparıcı silah sənayelərinin istehsalı olan hərbi texnikalarla təchiz olunduğundan bizim qoşunlarda onların istifadəsinə artıq ehtiyac qalmayıb.

Əlahiddə Ümumqoşun Ordunun uğurları və döyüş imkanları respublikamızda həyata keçirilən hərbi quruculuğun ən mükəmməl nümunələrindən biridir. Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin diqqət və qayğısı ilə bu ordu döyüş qabiliyyətini durmadan artırır, ən müasir hərbi imkanlara sahib olur. Bir sözlə, Naxçıvanın müdafiəsində mətinliklə dayanan Əlahiddə Ümumqoşun Ordu üzərinə düşən vəzifələri şərəflə yerinə yetirir.

**Rəşad CƏFƏRLİ,**
**Bakı-Naxçıvan-Bakı**
**“Azərbaycan” qəzeti**
**1 fevral 2022-ci il**

# Gənclər Günü münasibətilə tədbirlər keçirilib

*Naxçıvan Dövlət Musiqili Dram Teatrında 2 fevral – Gənclər Günü münasibətilə konsert proqramı təqdim olunub.*



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə keçirilən tədbirdə bir-birindən rəngarəng musiqi ifaları səsləndirilib. Proqram çərçivəsində Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfüqar Mahmudov və Ruhiyyə Hüseynovanın yaddaqalan ifaları, Rüstəm İbrahimovun səsləndirdiyi “Xarıbülbül” xalq mahnısı, Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Sona Abbasova və Haqverdi Əliyevin təqdim etdikləri “Vals”, Hakim Məmmədlinin dirijorluq etdiyi simfonik orkestrin ifası ilə Arif Məlikovun “Məhəbbət əfsanəsi” baletindən türk qızlarının rəqsi, müğənnilərdən Bəhruz Quliyevin oxuduğu Bəhram Nəsibovun “Gəl inad etmə”, İlkin Abdullayevin ifasında Firudin Allahverdiyevin “Nərdivan”, Nərmin Hüseynovanın səsləndirdiyi Tofiq Bakıxanovun “Gözəllik məskəni” mahnıları, mahnı və rəqs ansamblının “Şənlik” süitası, “Qaytağı” rəqsi, Naxçıvan Dövlət Filarmoniyasının Simfonik Orkestrinin ifasında İohann Ştrausun “Rodetski marşı” izləyicilər tərəfindən maraqla qarşılanıb.



Azərbaycan Respublikasının Əməkdar artisti, beynəlxalq müsabiqələr laureatı, dosent Sahib Paşazadənin Yaşar Xəlilovun “Sözsüz” mahnısının və Həsən Rzayevin “Çahargah” rapsodiyasının tarda ifası, beynəlxalq müsabiqələr laureatı Sevinc Kərimovanın fortepianoda müşayiəti yaddaqalan ifalar sırasında olub. Azərbaycan Respublikasının Əməkdar artisti Sahib Paşazadə ifasından əvvəl 2 fevral – Gənclər Günü münasibətilə Azərbaycan gənclərini təbrik edib, Naxçıvana gəlişindən məmnunluq duyduğunu bildirib.

Qeyd edək ki, konsertdə izləyici qismində Bakı şəhərindən Naxçıvana qonaq gələn Xalq artisti, professor, bəstəkar Tofiq Bakıxanov da iştirak edib. Konsert proqramında bəstəkarın da əsərlərinə müraciət olunub.

**Gülcamal TAHİROVA**

*Dünən 2 fevral – Gənclər Günü ilə bağlı ümumtəhsil məktəblərində səmərəli fəaliyyəti ilə fərqlənən gənc müəllimlərlə görüş keçirilib.*

Tədbirdə təhsil naziri Rəhman Məmmədov gənc müəllimləri Gənclər Günü münasibətilə təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. Nazir çıxışında əsası ümummilli liderimiz tərəfindən qoyulan gənclər siyasətinin ölkəmizdə, eləcə də muxtar respublikamızda uğurla həyata keçirilməsindən danışıb. Diqqətə çatdırılıb ki, muxtar respublikada gənclərin işlə təminatına göstərilən qayğı səriştəli, bacarıqlı kadrların məktəbə gəlməsinə, müəllimlərin müvafiq təhsil müəssisələrində yerləşdirilməsinə stimul vermişdir. Hazırda muxtar respublikanın təhsil müəssisələrində yaşı 29-dək 2 direktor, 4 direktor müavini, 5 təşkilatçı, 22 hərbi rəhbər, 53 uşaq birliyi təşkilatının rəhbəri, 43 psixoloq, 51 laborant, 54 kitabxana müdiri, 963 müəllim, şəhər və rayon Təhsil şöbələrində isə 21 dövlət qulluqçusu, 9 metodist olmaqla, ümumilikdə, 1227 gənc kadr fəaliyyət göstərir.



Nazir şagirdlərin milli dəyərlər əsasında formalaşmasında hər bir müəllimin üzərinə düşən vəzifələrdən danışıb, çıxışının sonunda müəllimlərə muxtar respublikamızın sabahı naminə fəaliyyətlərində uğurlar arzulayıb.

Tədbirdə Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının sədri Gülxanım Orucova, Babək rayon Araz kənd ümumi orta məktəbinin tarix müəllimi Nazlı Nəcəfova, Heydər Əliyev adına tam orta məktəbin XI sinif şagirdi, FIDE ustası Nəsrin Babayeva çıxış edərək muxtar respublikada təhsilin inkişafında gənclərin rolundan danışıb, onlara göstərilən dövlət qayğısına görə minnətdarlıqlarını bildiriblər.

Sonra Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Ovni Muradov gənc dövlət qulluqçularına ixtisas dərəcələrinin verilməsi haqqında əmrlə tədbir iştirakçılarını tanış edib.

Tədbirdə səmərəli fəaliyyəti ilə fərqlənən gənc dövlət qulluqçuları, məktəb rəhbərləri və gənc müəllimlər diplomla mükafatlandırılıb, bədii hissədə isə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin dərnək üzvləri şeir, musiqi və rəqs nömrələri ilə çıxış ediblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Tarixi keçmişimizə nəzər salsaq, görərik ki, vətənpərvərlik anlayışı tarixin bütün dönəmlərində xalqımız üçün böyük önəm kəsb etmiş, bu gün də aktual olaraq qalır. Olduqca geniş mənaya malik olan vətənpərvərlik anlayışı özündə Vətənə, millətə sevgi hissini, müxtəlif səviyyə və istiqamətlərdə Vətənə, millətə xidmət etməyi birləşdirir. Tarixin bütün dövrlərində Vətənimizin igid oğulları, qeyrətli qızları vətənpərvərliyi ilə seçilmiş, vətənimizin bütövlüyü uğrunda yadelli işğalçılara qarşı qəhrəmancasına mübarizə aparmış, Vətən naminə canlarını qurban verməkdən çəkinməmiş, əsl vətənpərvərlik nümunəsi göstərərək şərəfli bir iz qoyub getmişlər.***

# Gəncliyin missiyası:
## *vətənpərvərlik, dövlətə sədaqət*

Hər bir xalqın milli dəyərlərinin əsasında vətənpərvərlik dayanır. Görkəmli dövlət xadimi Heydər Əliyev deyirdi: ***"Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlərboyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".*** Bəli, vətənpərvərlik – Vətənə olan ülvi məhəbbətdir, sədaqətdir. Vətənpərvərlik hissi tariximizə, doğma torpaqlarımıza bağlılıqdan, onu düşmən təhdidlərindən qorumaqdan başlayır. Hər bir halda milli vətənpərvərlik hissi insanların bir vətəndaş kimi yerini, mövqeyini, ləyaqət və dəyanətini müəyyən edir, onu bu yolda misilsiz qəhrəmanlıqlar və fədakarlıqlar göstərməyə ruhlandırır. Əgər fəhlə öz vətənpərvərliyini yaxşı işləməkdə, alim maraqlı elmi kəşflərində, şair yazı masasında, müəllim yazı taxtasında, əsgər səngərində görürsə, rəssam gözəl bir tablo yaradırsa, elə əsl vətənpərvərlik budur. Gənc nəsil doğma torpağımızı və dövlətimizi fədakarlıqla müdafiə etməyi, yaxşı təhsil almağı qarşısına məqsəd qoyursa, deməli, əsl vətənpərvərlik nümunəsi göstərir. Azərbaycan xalqı gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, öz ata-babalarının ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük məsuliyyətlə yanaşmış və ona həyati əhəmiyyətli məsələ kimi baxmışdır.

Ulu öndərin milli ideologiyasının əsasında dayanan dövlət gənclər siyasəti əsrlərboyu xalqımızın malik olduğu milli-mənəvi dəyərlər əsasında müstəqillik, dövlətçilik, azadlıq və onların qorunması uğrunda mübariz ruhlu gənc nəslin yetişdirilməsindən ibarət olub. Milli dövlətçiliyin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, demokratik cəmiyyət quruculuğu, siyasi, hüquqi və iqtisadi islahatların həyata keçirilməsi ilə bağlı ümummilli liderin ideyaları və irəli sürdüyü prinsiplər Azərbaycanın hazırkı və gələcək inkişaf strategiyasının əsasını təşkil edib. Əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir ki, bu gün ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü, vətənpərvər yeni nəsil yetişib.

Dahi lider Heydər Əliyev gənclərin vətənpərvər ruhda yetişməsini daim diqqətdə saxlayırdı. Ulu öndər gəncləri hərbi xidmətə hazırlamağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların fiziki və mənəvi, hərbi-texniki hazırlığını yüksəltməyə xüsusi əhəmiyyət verirdi. Böyük xilaskar gənclər qarşısında çıxışlarının birində qeyd edirdi: ***"Azərbaycanın suverenliyi hər bir azərbaycan vətəndaşı üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi, öz vətənimizi, öz torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı Vətən oğulları etməlidir. Ona görə də orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına, idmana ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, onları Vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır".***

Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi kurs bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə başçımızın rəhbərliyi ilə həyata keçirilən dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin inkişafına təkan verib, onların özlərini cəmiyyətdə təsdiq etməsində mühüm rol oynayıb. Bu siyasət nəticəsində gənclərimiz dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşıblar.

Bu gün böyük iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi də bu tarixi kökdən gələn milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan miras qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır. Azərbaycan tarixinin hər bir mərhələsində aparıcı sosial-siyasi qüvvəyə çevrilən gənclər müstəqilliyin qorunub saxlanması, möhkəmləndirilməsi və dövlətçiliyin inkişaf etdirilməsi prosesində də yaxından iştirak edərək tarixi nailiyyətlər qazanırlar.

Vətənpərvərlik ruhu ilə böyüyən gənc nəsil 44 günlük Vətən müharibəsindəki zəfər yolumuzda başlıca rol oynadı. Tarixi ədalətin bərpası zamanı gənclərimizin göstərdiyi yüksək vətənpərvərlik nümunələri xalqımızı olduqca qürurlandırdı, gənclər siyasətinin nə qədər düzgün qurulduğunu və həyata keçirildiyini aydın şəkildə göstərdi. Naxçıvanlı gənclərin misilsiz qəhrəmanlıq və şücaəti ilə fərqləndiyi bu müharibə əsl vətənpərvərlik meydanına çevrildi. Ölkəmizin sosial-iqtisadi cəhətdən davamlı və dinamik inkişafı, regionda aparıcı dövlətə çevrilməsi, dövlət başçısı, Ali Baş Komandan Prezident cənab İlham Əliyevin Vətənimizin tərəqqisi, dövlətimizin beynəlxalq aləmdə nüfuzunun durmadan yüksəldilməsi, 30 ilə yaxın müddətdə işğal altında qalan doğma Qarabağın işğaldan azad olunması istiqamətində möhtəşəm fəaliyyəti hər bir vətəndaşımız, yetişməkdə olan hər bir gəncimiz üçün böyük vətənpərvərlik nümunəsi, vətənpərvərlik məktəbidir. Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri, möhtəşəm Xudafərin körpüsü üzərində, Qarabağ şəhərlərində müqəddəs üçrəngli Azərbaycan bayrağını qaldırması, hər bir azərbaycanlının iftixar etdiyi əsl vətəndaşlıq, gənclər üçün əsl vətənpərvərlik örnəyidir. Bu tarixi Zəfər, eyni zamanda Azərbaycan xalqının, xüsusən Azərbaycan gəncliyinin milli vətənpərvərlik ruhunun yüksək olduğunu, millətimizin Vətən, dövlət, dövlətçilik, bayraq sevgisini, dövlət başçısı və xalq birliyini parlaq şəkildə nümayiş etdirdi.



Ümummilli lider Heydər Əliyevin yaratdığı Azərbaycançılıq məfkurəsinin əsas prinsipləri dil, din və adət-ənənələrin qorunması, milli dəyərlərin yaşadılması, inkişaf etdirilməsi, təbliği, əsası isə ümummilli ideyaların əsas götürülməsi böyük tarixə və dərin köklərə malik olan muxtar respublikamızda da daim diqqət mərkəzində saxlanılır, gənclik bu ruhda tərbiyə olunur. Muxtar respublikada gənclərin sağlam, vətənpərvər ruhda böyümələri, yüksək səviyyədə təhsil almaları, onların cəmiyyətin müxtəlif sahələrində fəal iştirakını təmin etmək üçün ardıcıl tədbirlər həyata keçirilir. Bu gün Naxçıvan Muxtar Respublikasında gənclər milli dəyərlərimizə hörmət ruhunda tərbiyə olunur, yeni ideyaların təşəbbüskarı və dövlət idarəçiliyində aparıcı qüvvə kimi formalaşır, idman, elm, mədəniyyət, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun: ***"Bu gün bizim qarşımızda bir vəzifə durur: Mənəviyyatca təmiz, intellektli və vətənpərvər gənclər yetişdirmək. Gənclərin bir yolu var. Bu yol ölkə Prezidenti tərəfindən uğurla davam etdirilən Heydər Əliyev yoludur. Hər bir gənc yaradılan yüksək şəraitdən və göstərilən dövlət qayğısından bəhrələnərək Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalı, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli və ona göstərilən etimadı doğrultmalıdır"*** fikirləri əsasında muxtar respublika gəncləri öz yolunu müəyyən edir, dövlətçilik ənənələrini daim uca tutur, ictimai-siyasi proseslərdə yaxından iştirak edir, ulu öndər Heydər Əliyevin siyasi xəttinə sədaqət ruhunda böyüyürlər.

Muxtar respublikamızda cəmiyyətin bütün təbəqələri sırasında, gənclərin də üzərinə milli dəyərlərimizi, adət-ənənələrimizi dərindən öyrənmək və təbliğ etmək kimi böyük vəzifələr düşür. Bunun üçün, ilk növbədə, cəmiyyətin əsas aparıcı qüvvəsi kimi reallığı düzgün qiymətləndirərək, qloballaşma dövründə ümumbəşəri dəyərlərin müsbət tərəflərini elə mənimsəməliyik ki, tariximizi, mədəniyyətimizi və bizi birləşdirən milli dəyərləri qoruyub saxlamaqla, dövlətimizin inkişafına öz dəyərli töhfələrimizi verə bilək. Bu gün hər bir Azərbaycan gəncinin mənəvi borcu daxili, xarici təqiblərdən, təhdidlərdən, bizə qarşı yönələn təzyiqlərdən qorunma işində öz çiyinlərini bu yükün altına vermək və ölkəmizə sahib çıxmaqdır. Qürurvericidir ki, gənclik ulu öndər tərəfindən əsası qoyulan gənclər siyasətini uğurla həyata keçirən ölkə Prezidenti ətrafında sıx birləşib, milli təəssübkeşlik, vətənpərvərlik nümunəsi ortaya qoymalı, xalqımıza, milli dövlətçiliyimizə zərər verməyə çalışan xarici qüvvələrə və onların daxildəki havadarlarına layiqli cavab verməyi bacarmalıdır. Çünki müstəqil Azərbaycan dövlətini qorumaq, dövlətə sahib çıxmaq hər bir Azərbaycan vətəndaşının ilkin vəzifəsidir. Milli vəzifəmiz həmişə dövlətin yanında olmaqdır.

Gəncliyin başlıca missiyası Vətənini göz bəbəyi kimi qorumaqdır. Hər kəs öz sevgisi, məhəbbəti, varlığıyla Vətənini şəxsiyyətində, mənliyində yaşatmalıdır. Yaşatmalıdır ki, Vətən yaşasın. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"O dövlət, cəmiyyət güclüdür ki, onun gəncliyi, əhalisi dövlətə, mənsub olduğu xalqa sədaqətlidir, vətənpərvərdir, təhsillidir. Vətənpərvərliyi, milli ruhu, zəngin mədəniyyəti olmayan insan yüksək savada da malik ola bilməz. Odur ki, harada təhsil almağınızdan, fəaliyyət göstərməyinizdən asılı olmayaraq, unutmayın ki, Müstəqil Azərbaycan Respublikasını təmsil edirsiniz, doğma ana yurdumuz Azərbaycandır. Azərbaycanın adını, azərbaycanlı şərəfini daim uca tutmalı, hər biriniz bu ada layiq olmalısınız"*** müdrik tövsiyəsi muxtar respublikamızın bütün gəncləri tərəfindən böyük etimad kimi dəyərləndirilərək başlıca fəaliyyət proqramına çevrilib.

*Muxtar respublika gəncliyi bundan sonra da ölkə başçısının, muxtar respublika rəhbərinin ardıcıl şəkildə həyata keçirdiyi Azərbaycançılıq prinsiplərinə əsaslanan mükəmməl dövlət siyasətini dəstəkləyəcək, ulu öndər Heydər Əliyevin dövlətçilik təliminin həyata keçirilməsinin fəal iştirakçıları kimi vətənpərvər və dövlətə sədaqətli olmağı mühüm missiya kimi həyata keçirəcək.*

**Arzu ABDULLAYEV**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi ilk partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru***

# Pedaqoji profilli ixtisasları bitirən 75 gənc müəllim işlə təmin olunub



Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən imtahanlarda müvafiq keçid balını toplayaraq işə qəbul edilən gənc müəllimlərlə Təhsil Nazirliyində görüş keçirilib. Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov gənclərin muxtar respublikamızın həyatında mühüm rol oynadığını qeyd edib və təhsilə göstərilən yüksək dövlət qayğısından danışıb.

Qeyd olunub ki, muxtar respublikada müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülüb və 2022-ci il yanvarın 1-dən müəllimlərin aylıq vəzifə maaşları orta hesabla 20 faiz artırılıb. Müəllim əməyinə verilən yüksək qiymətin bariz nümunəsidir ki, 400-dən çox müəllim Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülüb, "Tərəqqi" medalı ilə təltif edilib.

Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 14 aprel 2018-ci il tarixli Qərarı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət ümumi təhsil və ilk peşə ixtisas təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsi Qaydaları"na uyğun olaraq 2018-ci ildən bu günədək keçirilən müsabiqələrdə yüksək nəticə göstərən gənclərdən 661-i müəllim, 192-si isə müxtəlif vəzifələr olmaqla, ümumilikdə, 853 gənc kadr işlə təmin olunub.

Diqqətə çatdırılıb ki, müəllimlərin işə qəbulu ilə bağlı dekabrın 27-də yekunlaşan növbəti müsabiqədə 160 vakant yerə 449 müraciət olub, onlardan 277-si keçid balını toplayıb. Onlardan 75-i ən yüksək nəticə göstərdiyindən fevralın 1-dən ümumtəhsil məktəblərində müəllim kimi fəaliyyətə başlayacaqdır. İşə qəbul edilənlərdən 24-ü stimullaşdırıcı tədbirlərin tətbiq olunduğu məktəbləri seçib. İşlə təmin olunan 75 müəllimdən 46-sı Naxçıvan Dövlət Universitetinin, 13-ü Naxçıvan Müəllimlər İnstitutunun, 9-u isə "Naxçıvan" Universitetinin pedaqoji profilli ixtisaslarının məzunlarıdır.

Nazir bildirib ki, muxtar respublikanın şəhər və rayon məktəbləri ilə yanaşı, ucqar dağ kəndlərində də yaradılan müasir təhsil infrastrukturunun nəticəsidir ki, gənc müəllimlərdən 21-i şəhər və rayon mərkəzlərində yaşasa da, kənd məktəblərində işləməyə üstünlük verib.

Təhsil naziri çıxışının sonunda gənc müəllimləri yeni işə təyin olunmaları və 2 fevral – Gənclər Günü münasibətilə təbrik edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşlarından Abdulla Əsgərov, Sahil Əlizadə, Naxçıvan Gənc Müəllimlər Assosiasiyasının sədri Gülxanım Orucova, Şahbuz rayon Ağbulaq kənd tam orta məktəbinin İngilis dili müəllimi, Prezident mükafatçısı Nigar Mirzəmmədova çıxış ediblər. Surə Əliyeva gənc kadrların işlə təmin olunması, gəncliyə göstərilən dövlət qayğısına görə gənc kadrlar adından minnətdarlığını bildirib.

Qeyd edək ki, yeni işə qəbul edilən gənc müəllimlər üçün 25-27 yanvar 2022-ci il tarixlərdə "İnnovativ müəllim" təlimi keçirilib. Tədbirin sonunda təhsil naziri yeni işə qəbul edilən gənc müəllimlərə "İnnovativ müəllim" sertifikatlarını təqdim edib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı ölkə üzrə *"İlin ən yaxşı Tələbə-Gənclər Təşkilatı"* adını qazanıb



Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə Bakı şəhərində 2 fevral – Gənclər Gününə həsr olunmuş Tələbə-Gənclər təşkilatlarının I strateji planlaşdırma forumu olub.

Forum çərçivəsində 2021-ci ildə ölkədə ictimai və sosial əhəmiyyətli, o cümlədən könüllü fəaliyyətin təşkili və bu fəaliyyətin həyata keçirilməsində fəal iştirakına görə Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı "İlin ən yaxşı Tələbə-Gənclər Təşkilatı" nominasiyası üzrə mükafatlandırılıb.

Məlumat üçün onu da bildirək ki, Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının əsas məqsədi dövlət gənclər siyasətinin həyata keçirilməsi istiqamətində tələbələrin və ayrı-ayrılıqda hər bir tələbənin maraqlarını təmsil və müdafiə etmək, respublikanın ictimai-siyasi, mədəni, sosial, iqtisadi həyatında onların fəal iştirakını təmin etməkdir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

# Ötən ili uğurlarla tarixləşdirən gənclərimiz

*Naxçıvan Muxtar Respublikasında gəncliyə və gənclərə etimad öz təsdiqini tapmaqdadır. Bu gün diyarımızda gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. 2 fevral – Gənclər Günü münasibətilə geridə qoyduğumuz ildə uğur qazanan bəzi gənclərimizin fikirlərini öyrəndik.*

1992-ci ildə Naxçıvan şəhərində musiqiçi ailəsində anadan olan ***Sevinc Babayeva*** 2002-ci ildən qanun ifaçılığı ilə məşğul olur. 11 yaşında "İlin ən yaxşı ifaçısı" adına layiq görülən Sevinc Naxçıvan Dövlət Filarmoniyasının kamera orkestri ilə dahi bəstəkar S.Ələsgərovun qanun üçün yazdığı "Poema"sını ifa edərək mütəxəssislərin diqqətini cəlb edib. Bir çox tədbirlərdə iştirak edən, eyni zamanda müsabiqələrin qalibi olan gənc musiqiçi 2007-ci ildə Naxçıvan Musiqi Kollecinin qanun sinfinə qəbul olub: "Bakı şəhərində keçirilən gənc ifaçıların I Respublika müsabiqəsində "Qran Pri" mükafatına layiq görüldükdən sonra 2021-ci ilin may ayında Amerikanın Nyu-York şəhərində təşkil olunan "Fiestalonia Amerikan Edition" – beynəlxalq distant yaradıcı insanlar müsabiqəsinə qatıldım. Müsabiqədə bütün dünya ölkələrindən müxtəlif yaş qrupuna aid yaradıcı insanlar iştirak edirdilər. Müsabiqəyə "World Talent Rankinq"(ABŞ), Böyük Britaniya və "Open İtaly" (İtaliya) assosiasiyaları rəhbərlik edirdi. Müsabiqədə 5 ölkədən 40-a yaxın dünya şöhrətli musiqiçilərdən, rəssamlardan, balet və rəqs ustalarından və dünyada tanınmış digər sənət adamlarından ibarət nüfuzlu münsiflər heyəti fəaliyyət göstərirdi. Bura 5 sənət sahəsi üzrə dünyanın hər yerindən iştirakçılar dəvət edilmişdi: vokal sənəti, instrumental ifa, xoreoqrafiya, rəssamlıq və dizayn. Müsabiqə şərtlərinə əsasən 2022-ci ilin may ayında İspaniyada keçiriləcək "Sea Sun" müsabiqəsinə də dəvət almışam".



2011-ci ildə Musiqi Kollecini fərqlənmə diplomu ilə bitirən Sevinc Babayeva Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsində Qanun ixtisası üzrə təhsilini davam etdirib. Universitetin bakalavr və magistraturasını fərqlənmə diplomu ilə bitirən gənc musiqiçi 2019-cu ildə Bakı şəhərində keçirilən "Testene Art Baku" III beynəlxalq müsabiqəyə qatılır və bu müsabiqədə I dərəcəli diploma layiq görülür. Eyni zamanda 11 ildir, pedaqoji fəaliyyətlə məşğul olan Sevinc müəllimin tələbələri respublikada keçirilən müsabiqələrdə mükafatlara layiq görülüblər. Sevinc Babayeva 2021-ci ildə Prezident mükafatına layiq görülüb: "Bu gün muxtar respublikada gənc musiqiçilərə göstərilən diqqət və qayğının nəticəsidir ki, bu mükafata layiq görülmüşəm. Bu, insanı daha səylə, məsuliyyətlə işləməyə sövq edir. Bundan sonra da yaradılan şəraitdən maksimum istifadə edib, Azərbaycanı, Naxçıvanımızı beynəlxalq səhnələrdə daha layiqincə təmsil edəcəyəm".

Naxçıvan Dövlət Universitetinin müəllimi ***Əziz Qasımov***, eyni zamanda Tələbə-Gənclər Təşkilatının sədridir. Onunla Gənclər Günü öncəsi görüşümüz üçqat əlamətdar, sevincli hadisəyə təsadüf etdi. Əziz müəllim də fəal gənclərimizdən biri kimi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 1 fevral tarixli Sərəncamına əsasən 2022-ci il Gənclər üçün Prezident mükafatına layiq görülüb. Digər bir tərəfdən Azərbaycan Respublikasının Gənclər Fondu və Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqının təşkilatçılığı ilə keçirilən Tələbə-Gənclər təşkilatlarının I strateji planlaşdırma forumu çərçivəsində 2021-ci ildə ölkədə ictimai və sosial əhəmiyyətli, o cümlədən könüllü fəaliyyətin təşkili və bu fəaliyyətin həyata keçirilməsində fəal iştirakına görə Əziz Qasımovun sədrlik etdiyi Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı "İlin ən yaxşı Tələbə-Gənclər Təşkilatı" nominasiyası üzrə mükafatlandırılıb. Onu bu əlamətdar mükafat münasibətilə təbrik edərkən sevinc və fərəh hisslərini bizimlə belə bölüşdü: "Bu gün ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da gənclər üçün hərtərəfli şərait yaradılıb. Gənclərin yüksək təhsil alması, həmçinin asudə vaxtlarının səmərəli təşkili üçün ardıcıl tədbirlər görülür. Geridə qoyduğumuz il Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatı üçün uğurlu olub. 2021-ci ildə 2500-ə yaxın tələbəni əhatə edən 16 layihə, 23 tədbir, 28 intellektual yarış keçirilib. Göstərdiyimiz fəaliyyətə görə 2021-ci il dekabrın 28-də Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu və Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən fəal gənclər təşkilatı nominasiyası üzrə təltif olunmuşuq. Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının "İlin ən yaxşı Tələbə-Gənclər Təşkilatı" nominasiyası üzrə mükafatlandırılması muxtar respublikada gəncliyə, gənclərimizin hərtərəfli inkişafına göstərilən dövlət qayğısının nəticəsidir. Tələbə-gənclər adından yaradılan şəraitə, bir gənc kimi fəaliyyətimin yüksək qiymətləndirilməsinə görə ölkə başçısına və muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm".



1996-cı il yanvarın 1-də Ordubad rayonunun Tivi kəndində anadan olan ***Babaəmir Hacıyev*** hazırda Naxçıvan Tibb Kollecinin ikinci kurs tələbəsidir. Keçirilən gənclər tədbirlərində fəallığı ilə seçilən Babaəmir, eyni zamanda Tibb Kollecinin Tələbə-Gənclər Təşkilatının sədridir: "Təhsil aldığım müddətdə kollecdaxili bir çox nailiyyətlərə imza atmışam. Təşkil olunan yarışlarda fərqlənməyimlə yanaşı, kitabxananın da fəal oxucusuyam. Fövqəladə Hallar Nazirliyi tərəfindən keçirilən ilk tibbi yardımda fəal iştirak etdiyimə görə təltif olunmuşam. Hər ay davamlı keçirilən kitab müzakirələrində iştirak etməklə yanaşı, tələbələrimizin də mütaliəyə marağını artırmaq üçün bir çox tədbirlər həyata keçiririk. Həm də Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının üzvüyəm və yarışlarda mükafata layiq görülmüşəm. O cümlədən Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin könüllüsü olaraq muxtar respublikanın bir çox tədbirlərində fəal iştirak edirəm. Ağbulaq İstirahət Mərkəzində təşkil olunan "Yay məktəbi"ndə, o cümlədən nazirlik tərəfindən keçirilən tədbirlərdə fərqləndiyimə görə diplom və hədiyyələrlə təltif olunmuşam. Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən 2021-ci il 24-26 sentyabr tarixlərində keçirilən Gənclər təşkilatlarının 2022-ci il üçün fəaliyyət strategiyasının planlaşdırılması düşərgəsində, Zəfər düşərgəsində fəal iştirak etdiyimə görə təltif olunmuşam. Muxtar respublikada bu gün təşkil olunan bütün tədbirlərin bir məqsədi var: gəncləri fəal fərd olaraq cəmiyyətə qazandırmaq. Məhz bu amil hər zaman biz gəncləri ruhlandırır, bizə böyük motivasiya verir. Gənclərimizin sağlam gələcəyə doğru addımlamasında hər zaman bizə dəstək olan muxtar respublika rəhbərinə minnətdarlığımı bildirirəm".



25 yaşlı ***Fərqanə Seyidova*** Babək rayonunun Şəkərabad kəndində anadan olub. Uşaqlıqdan rəsm çəkməyə marağı olan müsahibimizin bu sənətə gəlməyində böyük rolu atası oynayıb: "Gözümü açandan atamın rəssam-heykəltəraş olmasını görüb bu sahəyə maraq göstərmişəm. Uşaqlıqdan həvəsim, qabiliyyətim olsa da, bunu dəyərləndirməmişdim, bir sözlə, özümü kəşf etməmişdim. Sonradan bu sənəti daha da təkmilləşdirməli olduğumu düşündüm və 2019-cu ildə Naxçıvan Dövlət Universitetinin Təsviri incəsənət müəllimliyi ixtisasına daxil oldum. Hazırda üçüncü kursda təhsilimi davam etdirirəm. Universitetdə dekanımız Cavid İsmayılovun köməkliyi ilə özümü kəşf etdim. Hər rəsm əsəri çəkərkən onun "sən bunu bacararsan" sözləri məni daha da ruhlandırdı. Rəssamlıqla yanaşı, heykəltəraşlığa da böyük həvəsim və marağım var. Ötən il bu sahədə qabiliyyətimi ortaya qoydum və uğurlu nəticələr əldə etdim. Onu da deyim ki, bunlarla yanaşı, bədii tikmə sənəti ilə də məşğul oluram. Bu müddət ərzində tikmə üsulu ilə bir çox portret, animalistik janrlarda əl işlərim var. Bunlar arasında Bəhruz Kəngərlinin portretinin, "Tovuz quşu" və digər miniatür əsərlərimin adlarını çəkə bilərəm. Bu sənəti öyrənməkdə Siddiqə Hacıyevanın mənə köməyi əvəzsizdir. 2020-ci ildən Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi Gənc rəssamlar bölməsinin üzvüyəm. Həmçinin həmin il "İlin gənc rəssamı" adına layiq görülmüşəm. Bunlarla yanaşı, gənc rəssamlar bölməsinin hesabat sərgisində iştirakıma, "Nizami xəmsəsi" layihəsi çərçivəsində baş tutan "Xəmsə möcüzəsi", "Nizami dünyası", "Qarabağ Azərbaycandır!", "Bayraq mənliyimdir", "Qalib bizik", "Qızıl payız", "9 Noyabr – Dövlət Bayrağı Günü" adlı rəsm müsabiqələrində, 10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş rəsm sərgisində mükafatlara layiq görülmüşəm. Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev tərəfindən Təşəkkürnamə almışam".



*Naxçıvan gənclərinin diyarın ictimai-siyasi həyatında rolu gündən-günə artır. Hazırda muxtar respublikada mövcud olan qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsinin nəticəsində Naxçıvan gəncliyində özünə, öz gücünə, istedadına inam artıb. Gənclər də, öz növbəsində, dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Gəncliyin sağlam ruhlu, savadlı, yüksək mənəvi tərbiyəyə malik olması dövlət üçün önəmlidir. Cəmiyyətin gələcəyi gənclərdir və öz gələcəyini düşünən hər bir cəmiyyət gənclərə qayğı göstərir.*

**Ceyhun MƏMMƏDOV**

# İlin yekunları müzakirə olunub



Bu münasibətlə Naxçıvan Atletika Federasiyasında keçirilən yığıncaqda Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Ramil Hacı bildirib ki, nazirlik idmanın inkişafı və təbliğinə nail olmaq üçün muxtar respublikanın bütün idman federasiyaları ilə qarşılıqlı fəaliyyət göstərir və bu sahədə dövlət siyasətini həyata keçirir. Nazir qeyd edib ki, bu sahədə davamlılığın təmin olunması məqsədilə ardıcıl işlər görülür, maddi-texniki imkanlar genişləndirilir. İdmançıların dünya arenasına çıxışı təmin olunur və yüksək nailiyyətlər qazanılır. Belə ki, ötən il Naxçıvan idmançıları ölkə və dünya arenalarında 27-si qızıl olmaqla, ümumilikdə, 82 medala sahib olublar.

Qeyd edilib ki, qazanılan uğur və nailiyyətlərlə yanaşı, mühüm vəzifələr də dayanır. İdman federasiyaları və aidiyyəti qurumlarla birgə "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın icrası istiqamətində işlərin davam etdirilməli olduğunu vurğulayan Ramil Hacı dövlət idman siyasəti çərçivəsində qarşıya qoyulan tələb və tapşırıqları diqqətə çatdırıb.

"Atletika Federasiyası ötən müddət ərzində atletikanın muxtar respublikada təbliği və inkişafı məqsədilə bir sıra işlər görüb, atletika, ağır atletika və bədii gimnastika idman növlərinin, o cümlədən atletikanın nüvəitələmə və nizəatma növlərinin inkişafını diqqətdə saxlayıb", – deyən federasiyanın sədri Rəhman Məmmədov görülən işlər barədə məlumat verib. Bildirilib ki, 5 bədii gimnastika və 1 ağır atletika bölməsi, şəhər və rayon ümumtəhsil məktəblərində 29 atletika və 1 ağır atletika idman klubu yaradılıb, həmin bölmə və klublara fəaliyyətin səmərəli təşkili üçün 375-i gimnastika, 66-sı atletika, 39-u ağır atletika olmaqla, 480 ədəd müxtəlif idman avadanlıqları verilib. Hazırda federasiyada yaradılmış atletika bölmələrində 97 qrupda 1168, bədii gimnastika bölməsində 16 qrupda 225, ağır atletika bölməsində 4 qrupda 51 nəfər olmaqla, ümumilikdə, 1444 atlet və gimnast məşqlərdə iştirak edir. Federasiya üzvlərindən 761-i qız, 683-ü isə oğlandır. Bu idmançılarla 57 məşqçi-müəllim məşğul olur.

Hesabat dövründə yeniyetmə və gəncin iştirakı ilə 88 çempionat, birincilik və turnir təşkil olunub. Atletlərimiz beynəlxalq turnirlərdə 2, Azərbaycan birinciliklərində 3 medal qazanıblar. Həmçinin Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində təşkil edilən bədii gimnastika kursunu bitirən 15 müəllimə sertifikat təqdim edilib, bu işlərin davamı olaraq Lənkəran şəhərində keçirilən məşqçilər seminarında 1 məşqçi-müəllimin iştirakı təmin olunub. Federasiyanın sədr müavini İntiqam Rəhimov ötən il ərzində keçirilən tədbirlər haqqında hesabat xarakterli məlumatı diqqətə çatdırıb.

Sonda ötən il ərzində müvəffəqiyyət qazanan idmançılar, bölmə rəhbərləri və məşqçi-müəllimlər mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Yeni tədris ilinə start verilib

Naxçıvan Qarnizonu Qoşunlarında, Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında və Xüsusi Riskli Xilasetmə Xidmətində 2022-ci yeni tədris ilinin başlanması ilə əlaqədar mərasimlər keçirilib.

Tədbirlərdə ötən tədris ilində şəxsi heyətin peşəkar hazırlığının və fiziki dözümlülüyünün, heyət, bölmə, hissə və birləşmələrin, idarəetmə orqanlarının hazırlığının yüksəldilməsi, eyni zamanda təyinata uyğun döyüş, eləcə də fövqəladə hallar zamanı tapşırıqların yerinə yetirilməsi üçün tələb olunan səviyyədə təkmilləşdirilməsi tapşırıqlarının və ümumilikdə, planlaşdırılmış tədbirlərin tam həcmdə icra olunduğu qeyd edilib.

"Naxçıvan Qarnizonu Qoşunlarının 2022-ci tədris ilinə uzlaşma planı"na əsasən məşğələ və təlimlərin davamlı keçiriləcəyi bildirilib. Diqqətə çatdırılıb ki, müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyət tərəfindən vəzifələrin öyrənilməsi, bölmələrin tapşırıqlarının dəqiqləşdirilməsi, həyəcan siqnalı ilə qaldırılması, cəmləşmə rayonlarına çıxarılması, gizli idarə olunması və qəfil ortaya çıxan tapşırıqların icrası üzrə məşqlər və təlimlər müxtəlif səviyyələrdə növbəti bir neçə gündə davam edəcək.



Mülki Müdafiə Alayında və Xüsusi Riskli Xilasetmə Xidmətində keçirilən mərasimdə isə qeyd olunub ki, döyüş (peşə) hazırlığı təsdiq olunan planlara və proqramlara uyğun təşkil edilməli, tədris dövrünün başlanması ilə əlaqədar həyəcan siqnalında fəaliyyət üzrə taktiki-sıra, komandir hazırlığı məşğələləri və bütün növ ixtisaslı mütəxəssislərlə təlim-metodik toplantılar keçirilməlidir. Eyni zamanda Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin qərargahları ilə ayrılıqda və birgə qərargah məşqləri, taktiki-xüsusi təlimlər, qoşun xidmətinin təşkili və aparılması üzrə nümunəvi məşğələlər təşkil olunmalıdır.

**Xəbərlər şöbəsi**

***İtmişdir***

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti bina 31, mənzil 35 ünvanında Qasımova Tahirə Məmmədbağır qızının adına verilən MH-0011133 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti bina 31, mənzil 36 ünvanında Qasımova Tahirə Məmmədbağır qızının adına verilən MH-0011285 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Nail Əsgərov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 98